**G. T.Əliyeva**

**UOT: 339.5; JEL: F10.**

# Azərbaycan-Almaniya ticarət əlaqələrinin müasir vəziyyəti və inkişaf dinamikasının təhlili

***Xülasə***

*Məqalədə Azərbaycan-Almaniya iqtisadi-ticarət əlaqələrinin inkişaf dinamikasının kompleks və sistemli təhlili əsasında Almaniya ilə xarici əlaqələrin Azərbaycanın iqtisadi inkişafına təsiri baxımından qiymətləndirilir. Azərbaycan və Almaniya arasında ticarət və iqtisadi əməkdaşlığın genişləndirilməsi, istiqamətləri və prioritetlər, Azərbaycanın Almaniyaya ixrac perspektivi olan əmtəə qrupları müəyyənləşdirilir və onların rasional seçim prinsipləri təklif olunur. Həmçinin Azərbaycanın xarici ticarət və ixracın təşviqi potensialı müəyyən edilir.*

***Açar sözlər:*** *Almaniya, xarici əlaqələr, xarici ticarət, inteqrasiya, müqayisəli üstünlük, rəqabətqabiliyyətlilik, ixrac, idxal, daxili və xarici bazar, enerji təhlükəsizliyi*

## Giriş

Azərbaycan onunla eyni kontinentdə yerləşən, əhatə və nüfuz dairəsinə görə dünyanın əsas iqtisadi və siyasi güc mərkəzlərindən biri olan Avropa İttifaqı (Aİ), o cümlədən Avropa iqtisadiyyatının lokomotivi hesab olunan Almaniya ilə iqtisadi əməkdaşlığını genişləndirməsi və bu məkana inteqrasiya obyektiv zərurətə çevrilmişdir. Almaniya Avropa iqtisadiyyatında lider ölkə kimi ölkənin məkana inteqrasiyası prosesində aparıcı rola malikdir. BREXİT-in sürətlənməsi ilə Almaniya inteqrasiya prosesində lider ölkəyə çevrilməklə hər bir mərhələdə fayda əldə edir.



### Azərbaycanın xarici ticarətinin mövcud vəziyyəti

Azərbaycanın xarici ticarət dövriyyəsində əsas struktur dəyişikliyi iki dövrə təsadüf edir: 2008-2009-cu illər və 2014-2015-ci illər. Hər iki dövrdə neftin dünya bazar qiymətinin kəskin azalması ölkənin xarici iqtisadi fəaliyyətinə, ö cümlədən idxal-ixrac əməliyyatlarına əhəmiyyətli təsir göstərmişdir. 2016-cı ildən başlayaraq xarici ticarət dövriyyəsində bərpa prosesi müşahidə olunmağa başlamış və CƏB-in kəsiri sıfırlamış, sonrakı dövrlərdə isə pozitiv zonaya keçmişdir. Bu, ölkənin ixracının idxalını üstələdiyini göstərir. Eyni zamanda CƏB-in profisiti kapital və maliyyə hesabındakı kəsiri də örtmüşdür. Ölkənin idxalı artım dinamikasına malikdir, lakin ixrac, xüsusilə qeyri-neft ixracında artım tempi məhduddur. 2018-ci il üzrə tədiyyə balansının ümumi profisiti 2.9 mlrd.dollar təşkil etmişdir. Bu həm neft qiymətinin 33% bahalaşması (70 dolar), həm də Cari əməliyyatlar balansında yaranmış müsbət tendensiyalar hesabına baş vermişdir. Cari əməliyyatlar balansında 6.1 mlrd. dollarlıq profisit yaranmışdır. 2018-ci ilin yekunu üzrə Kapitalın və Maliyyənin Hərəkəti Balansının kəsiri 3.2 mlrd.dollar olmuş, ehtiyat aktivləri isə 3.5 mlrd.dollar artmışdır. 2018-ci ilin yekunu üzrə cari əməliyyatlar hesabında 6.1 mlrd.dollar (2017-ci ilə nəzərən 3.6 dəfə artım) məbləğində profisit yaranmış, o cümlədən neft-qaz sektoru üzrə profisit 1.7 dəfə (5.5 mlrd.dollar) artaraq 12.9 mlrd.dollar, qeyri-neft sektoru üzrə CƏB kəsiri isə ötən ilə nəzərən (ö.i.n.) 19.6% (1.1 mlrd.dollar) artaraq 6.8 mlrd.dollar məbləğində olmuşdur. Nəticədə neft-qaz sektorunun profisiti qeyri-neft sektoru üzrə cari hesabın kəsirini tam örtmüşdür. CƏB profisitinin əsas amilləri: 2018-ci il üzrə xarici ticarət dövriyyəsi 31.7 mlrd.dollar təşkil etmiş, neft-qaz sektoru üzrə 17.4 mlrd.dollar həcmində yaranmış profisit qeyri-neft sektoru üzrə 7.6

*© G. T.Əliyeva AMEA İqtisadiyyat İnstitutu, doktorant. E-mail: gunay_pasha@yahoo.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

mlrd.dollarlıq kəsiri bağlamış və nəticədə xarici ticarət balansında 9.8 mlrd.dollar-lıq (ö.i.n. 1.6 dəfə artım) profisit yaranmışdır. 2018-ci ildə Azərbaycanın dünyanın 185-dək dövləti ilə ticarət əlaqələri olmuşdur. Xarici ticarətin 12%-i MDB üzvü olan dövlətlərin, 88%-i isə digər xarici dövlətlərin payına düşür.

**Cədvəl 1.**

**Azərbaycanın xarici ticarət göstəriciləri (mln. dollar) [6]**

| | Əmtəə dövriyyəsi | İxrac | İdxal | Saldo |
|---|---|---|---|---|
| **İtaliya** | 6 163 | 5 859 | 304 | +5 555 |
| **Türkiyə** | 4 179 | 2 353 | 1 826 | +527 |
| **Rusiya Federasiyası** | 2 581 | 665 | 1 916 | -1 251 |
| **Almaniya** | 1 400 | 780 | 620 | +160 |
| **İsrail** | 1 334 | 1 311 | 23 | +1 288 |
| **Çin** | 1 261 | 113 | 1 148 | -1 035 |
| **Çexiya Respublikası** | 1 036 | 939 | 97 | +842 |
| **ABŞ** | 950 | 472 | 478 | -6 |
| **Hindistan** | 946 | 848 | 98 | +750 |
| **Ukrayna** | 794 | 357 | 437 | -80 |
| **Başqaları** | 11 102 | 7 097 | 4 005 | +3 092 |
| **Cəmi** | **31 746** | **20 794** | **10 952** | **+9 842** |
| **O cümlədən:** | | | | |
| **MDB dövlətləri** | **3 940** | **1 134** | **2 806** | **-1 672** |
| **Digər dövlətlər** | **27 806** | **19 660** | **8 146** | **+11 514** |

2018-ci ildə əmtəə ixracı 20.8 mlrd.dollar (37.2% artım) təşkil etmişdir. İxrac olunmuş malların strukturunda neft-qaz məhsullarının payı 92% olmuşdur. Neft qiymətlərinin yüksəlməsi fonunda neft-qaz sektoru üzrə ixracın həcmi 40.2% artaraq 19.2 mlrd.dollar olmuşdur. Xarici dövlətlərə 17.2 mlrd.dollar neft məhsulları ixrac olunmuş, ixrac olunmuş neft məhsullarının 620.5 mln.dolları neft emalı məhsullarının, 16.6 mlrd.dolları isə xam neftin ixracının payına düşür. İxrac olunmuş xam neftin 15.2 mlrd. dolları Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən hasil olunmuş neftin ümumi dəyəridir. İxrac olunmuş ümumi xam neftin 1333.1 mln. dollar-ı isə digər müəssisələr tərəfindən xaricə göndərilmişdir ki, bunun da 508.9 mln. dollar-ı Şahdəniz yatağından hasil edilmiş kondensatın, 824.2 mln.dollar-ı isə SOCAR-ın payına düşür.

Qeyri-neft ixracı artım dinamikası göstərir. Qeyri-neft ixracı dövr ərzində 9.8% artaraq 1.6 mlrd. dollar olmuşdur. Qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının payı 38.3%, o cümlədən, tərəvəz məhsulları 14.4%, təzə meyvələr 14.3% təşkil etmişdir. 2018-ci ildə əmtəə idxalı əvvəlki ilə nəzərən 21.2% artaraq 11 mlrd. dollar təşkil etmişdir, o cümlədən istehlak mallarının idxalının ümumi dəyəri 4.8 mlrd. dollar olmuş, bunun da 1.5 mlrd. dolları ərzaq məhsullarının payına düşür. Qeyri-neft sektoru üzrə idxal ö.i.n. 19.7% artaraq 9.2 mlrd. dollar olmuşdur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 2.**

**Azərbaycanın ixracının strukturu [6]**

| | 2017-ci il | | 2018-ci il | |
|---|---|---|---|---|
| | **Məbləğ, mln. dollar** | **Xüsusi çəki (%)** | **Məbləğ, mln. dollar** | **Xüsusi çəki (%)** |
| **İxrac - cəmi** | **15152.1** | **100** | **20793.8** | **100** |
| **o cümlədən:** | | | | |
| **1. Yanacaq-xammal məhsulları** | 14 203.4 | 93.8 | 19 748 | **95** |
| **- neft-qaz məhsulları** | 13 679.1 | 90.3 | 19 176 | **92.2** |
| **- digər xammal** | 524.3 | 3.5 | 572 | **2.8** |
| **2. Maşınqayırma məhsulları** | 66.5 | 0.4 | 94.4 | **0.4** |
| **3. İstehlak malları** | 830.1 | 5.5 | 884.6 | **4.3** |
| **4. Digər mallar** | **52.1** | **0.3** | **66.8** | **0.3** |

Qeyri-neft idxalının strukturunda minik avtomobillərinin (1.9 dəfə), kimya məhsullarının (40.9%), ağac məmulatlarının (39.5%), alkoqollu və alkoqolsuz içkilərin (28.8%), daş və şüşə məmulatlarının (22.0%), mebel məhsullarının (20.7%) və qara metal və ondan hazırlanmış məmulatların (14.2%) idxalı artmış, şəkərin (39.6%), dəmiryol nəqliyyat vasitələrinin (21.3%) və dənli bitkilərin (11.7%) idxalı isə azalmışdır.

**Cədvəl 3.**



**İdxalın strukturu [6]**

| | 2017-ci il | | 2018-ci il | |
|---|---|---|---|---|
| | **Məbləğ (mln.dollar)** | **Xüsusi çəki (%)** | **Məbləğ (mln. Dollar)** | **Xüsusi çəki (%)** |
| **İdxal-cəmi** | **9 037.3** | **100** | **10 952.4** | 100 |
| **cümlədən:** | | | | |
| **1.İstehlak malları** | 4 101.7 | 45.4 | 4 813.4 | **43.9** |
| **- ərzaq məhsulları** | 1 470.2 | 16.3 | 1 472.5 | **13.4** |
| **- digərləri** | 2 631.5 | 29.1 | 3 340.9 | **30.5** |
| **2. İnvestisiya yönümlü mallar** | 1 062.5 | 11.8 | 1 177.1 | **10.7** |
| **3. Digər mallar** | **3 873.1** | **42.8** | **4 961.9** | **45.4** |

İdxalın strukturunda xarici investisiyalar hesabına gətirilmiş maşın-avadanlıqların və malların xüsusi çəkisi 10.7% təşkil edərək 1.2 mlrd. dollar olmuşdur. Bundan başqa ölkəyə ümumi məbləği 5.0 mlrd. dollar olan istehsal təyinatlı maşın-avadanlıq, kimya, qara və əlvan metal məhsulları da gətirilmişdir. 2018-ci ilin yekunu üzrə xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində xidmətlərin ümumi həcmi 11.5 mlrd. dollar təşkil etmişdir. Bunun 6.8 mlrd. dolları qeyri-rezidentlər tərəfindən Azərbaycanın rezidentlərinə, 4.7 mlrd. dollar-ı isə Azərbaycan rezidentlərinin xarici ölkələrin rezidentlərinə göstərilən xidmətlərdir. Nəticədə xidmətlər balansında 2.1 mlrd. dollarlıq kəsir yaransa da, ötən ilə nəzərən 1.6 dəfə azalmışdır.

Neft-qaz sektoru üzrə kəsir 1.7 mlrd. dollar olmuşdur (əsasən 1.3 mlrd. dollar tikinti xidmətləri və 601 mln. dollar digər işgüzar xidmətlər). Neft-qaz sektoruna cəlb olunmuş investisiyaların 42%-i tikinti xidmətlərinin, 20%-i isə digər işgüzar xidmətlərin payına düşür.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Qeyri-neft sektoru üzrə xidmətlər balansının 2017-ci ildə olan 277 mln. dollarlıq kəsiri 2018-ci ildə idxalın artması ilə əlaqədar olaraq ö.i.n. 26.5% artaraq 350 mln. dollar təşkil etmişdir.

Qarşılıqlı xidmətlər dövriyyəsinin 24%-i nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 2.7 mlrd. dollar olan nəqliyyat xidmətlərinin 45%-i qeyri-rezidentlərin Azərbaycanın nəqliyyat sistemlərindən istifadə etmələri ilə əlaqədardır. Azərbaycanın rezidentlərinin qeyri-rezidentlərə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri 1.2 mlrd. dollar, qeyri-rezidentlərin Azərbaycan rezidentlərinə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri isə 1.5 mlrd. dollar təşkil etmişdir. Dövr ərzində qeyri-neft sektoru üzrə nəqliyyat xidmətlərinin ixracı 42.3% artmışdır. 2018-ci il üzrə qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi əvvəlki ilə nəzərən 13.3% azalaraq 4.9 mlrd. dollar təşkil etmişdir. Hesabat dövrü ərzində turizm xidmətləri üzrə ixrac (2.6 mlrd. dollar) idxalı (2.3 mlrd.dollar) üstələməsi nəticəsində 349.8 mln. dollar (2017-ci ildə 353.4 mln.dollar) həcmində profisit yaranmışdır (2018-ci il ərzində Azərbaycana gələn xarici vətəndaşların sayı 6% artıb).

Xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 2.3 mlrd. dollar məbləğində olmuşdur. Bunun 87%-i Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı xarici ölkələrdə olarkən sərf etdikləri vəsaitlərin (məkik idxal üçün vəsaitlər istisna olmaqla) payına düşür. Hesabat dövründə qeyri-neft sektoru üzrə qeyri-rezidentlərə ödənilən tikinti xidmətlərinin dəyəri ö.i.n. 30% azalaraq 25.1 mln. dollar təşkil etmişdir. Qeyri-neft sektoru üzrə qeyri-rezidentlərə ödənilən digər işgüzar xidmətlərin dəyəri isə ö.i.n. 3.8% azalaraq 799.4 mln. dollar olmuşdur. 2017-ci ildə Azərbaycan xarici ticarət əlaqələrində müəyyən nəticələr əldə etmişdir. Bu il ərzində ölkə dünyanın 187 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirirdi. Ticarət dövriyyəsinin ümumi həcmi 22593,6 mln. dollar çatmışdır, o cümlədən ixrac 13811,6 mln. dollar, idxal isə 8782,0 mln. dollar təşkil etmişdir.



Azərbaycanın ixrac göstəricilərindən görünür ki, 2005-2014-cü illərdə bu göstərici 5 dəfə artaraq 4347 mln. dollardan 21829 mln. dollara çatmışdır. İllər üzrə dinamikada ticarət dövriyyəsindəki kimi oxşar proseslər müşahidə edilmişdir: 2005-2007-ci illərdə mülayim artım sonradan, yəni 2008-2009-cu illərdə və 2014-2015-ci illərdə struktur sınma ilə xarakterizə olunmuşdur. 2008-2009-cu illərin böhranı nəticəsində ixrac 2009-cu ildə 14701 mln. doll. qədər düşmüşdü. 2010-cu ildən bərpa olunan ixrac 2011-ci ildə 26571 mln. doll. olmaqla pik səviyyəyə çatmışdır. 2015-ci ildən ixrac göstəricilərində yenidən kəskin azalma baş vermişdir. Belə ki, ölkə ixracının həcmi 2015-2017-ci illərdə 12,7-13,8 mlrd. dollar təşkil etmişdir ki, bu da 2005-ci ilin müvafiq göstəricisindən 3,8-3,5 dəfə azdır. Azərbaycanın idxalında da ixracda olduğu kimi eyni tendensiya müşahidə edilmişdir. Ölkənin idxalı 2014-cü ildə 2005-ci ilə nisbətən 2,2 dəfə artmış, 2013-cü ildə özünün pik səviyyəsinə 10713 mln. doll. həcminə çatmışdır. 2015-ci ildən başlayaraq ölkənin idxalında azalma baş versə də, 2005-ci ilin səviyyəsini üstələyir.

**Azərbaycanın Almaniya ilə idxal və ixracı**

2018-ci ildə Azərbaycanın ümumi ticarət dövriyyəsinin 4.6%-ə qədəri Almaniyanın payına düşür. O cümlədən ixracın 4%-i, idxalın isə 5.8%-i Almaniya ilə həyata keçirilmişdir. Azərbaycanın Almaniya ilə xarici ticarət dövriyyəsinin müqayisəli dinamikasını göstərilir. Belə ki, Azərbaycanın Avropa ilə ticarət dövriyyəsi 2001-2018-ci illərdə 6,6 dəfə artaraq 12908 mln. doll. çatmışdır. O cümlədən baxılan dövrdə Avropaya idxal 7.5 dəfə artaraq 2329 mln. dollara, ixrac isə 6.5 dəfə artaraq 10579 mln. dollara çatmışdır. Avropa ilə ticarət dövriyyəsində pik dövr 2011 ildə 18922 mln. dollar olmuşdur. Ticarət dövriyyəsi artım dinamikasına malik olsa da, idxal və ixracda pik ilindəki səviyyə hələ bərpa olunmamışdır.[2]

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Avropa ilə ticarət dövriyyəsinin 2018-ci ildə 11.2%-i Almaniya ilə həyata keçirilmişdir. Azərbaycanın Almaniya ilə ticarət dövriyyəsi 2001-2018-ci illərdə 16.8 dəfə artaraq 1441 mln. dollara çatmışdır. O cümlədən Almaniyadan idxal 9 dəfə, ixrac isə 60 dəfə artmışdır. Beləliklə, ticarət dövriyyəsində əsas artım ixrac hesabına baş vermişdir. Belə ki, təkcə 2018-ci ildə ticarət dövriyyəsində ixracın payı 54.2% təşkil etmişdir. Statistik məlumatlara görə Azərbaycanın Avropadan idxalının təxminən 1/3-i Almaniyanın düşmüşdür. Avropadan ixracda isə Almaniyanın payı azalma dinamikasına malik olmuşdur. Belə ki, 2015-ci ildə 20%-ə çatan bu pay sonrakı dövrlərdə azalaraq 7%-ə düşmüşdür. Bu azalma onun nəticəsidir ki, neftin dünya bazarında qiymətinin düşməsi iqtisadiyyatımıza və onun müxtəlif sahələri və göstəricilərinə də mənfi təsir edir. 2015-ci ildə aparılan devalvasiyaların təsiri nəticəsində Azərbaycanın dünya ilə, o cümlədən Almaniya ilə ticarət əməliyyatlarının dinamikasında kəskin azalma baş vermişdir. 2018-ci ildə ölkənin xarici ticarət dövriyyəsi 30.9 mlrd. dollar təşkil etmişdir ki, bu da böhrandan əvvəlki səviyyə ilə müqayisədə azdır. İlk növbədə Azərbaycanın Almaniya ilə xarici ticarət dövriyyəsi üzrə qeyd olunmalıdır ki, yuxarıda dediyimiz kimi, Almaniyanın xarici ticarət dövriyyəsi stabil artım tendensiyasına malik olmuşdur. Azərbaycanla isə Almaniyanın xarici ticarət dövriyyəsi qeyri-stabil xüsusiyyətə malik olması ilə fərqlənir. Bu da onunla əlaqədardır ki, Azərbaycanın iqtisadiyyatı əsasən xarici şoklara qarşı yüksək həssaslığa malikdir. Belə ki, ölkənin əsas gəlir mənbəyi olan neftin ixracda payı yüksəkdir, məcmu tələbin formalaşmasında isə dövlət tələbi üstünlük təşkil edir ki, onun da əsas maliyyələşmə mənbəyi neft gəlirləridir. Beləliklə, neftin dünya bazar qiymətinin dəyişməsi büdcə vasitəsilə idxala, neftin qiyməti vasitəsilə isə ixraca təsir göstərir. Bunu Azərbaycanla xarici ticarət dövriyyəsinin Almaniyanın ümumi xarici ticarət dövriyyəsinin tərkibində payının dinamikası da göstərir. Belə ki, ən maksimal faiz 2015-ci ildə 21.2% səviyyəsində müşahidə edilmişdir. 2017-ci ildə 10%-ə qədər düşən bu göstərici 2018-ci ildə yenidən bərpa olunaraq 11.2%-ə çatmışdır. Bu isə böhrandan əvvəlki 2012-ci ilin səviyyəsinə yaxındır. 2005-2012-ci illərdə bu göstərici kəskin volatil olmuş və orta illik 7.7% təşkil etmişdir. Bu dövrdə minimum pay 2008-ci ildə 2.8%, maksimum pay isə 2007-ci ildə 14% səviyyəsində olmuşdur.



Azərbaycanın Avropa ilə ticarət dövriyyəsinin təxminən 1/6-i Almaniyanın payına düşür və bu göstərici ölkənin inkişaf etmiş bazarlara yönəlməsi baxımından müsbət rola malikdir. Lakin bu göstəricinin daha da artırılması üçün əlverişli iqtisadi zəmin var və böyük səylər sərf edilməlidir. İxrac göstəricilərini təhlil etdikdə demək olar ki, Almaniyanın xarici ticarət dövriyyəsinin dinamikası ilə eyni olaraq burada da stabil artım tendensiyası müşahidə edilir. Lakin qeyd etmək lazımdır ki, Almaniya ilə xüsusilə idxal göstəricisində rəsmi və güzgü statistikası arasında fərqlər mövcuddur. Ticarət statistikası əsasında aparılmış təhlil 2001-2018-ci illərdə güzgü statistikasının rəsmi idxal göstəricisindən əhəmiyyətli yüksək olmasını göstərir. Fərq bəzi illərdə 2 dəfəyə qədər təşkil edir. Güzgü statistikası üzrə idxal göstəricisini nəzərə alsaq, Azərbaycan ilə Almaniyanın ticarət balansındakı kəsir daha böyük olacaqdır. Eyni zamanda ticarət dövriyyəsində də əsas artım idxal hesabına olacaqdır.

Lakin Almaniyadan idxalın tədqiqi zamanı rəsmi məlumatlara istinad edilmiş və bütövlükdə aşağıdakı nəticələr əldə edilmişdir. Bütövlükdə Azərbaycanın Almaniyadan idxal göstəricisi artım tendensiyasına malik olsa da, 2007-2016-cı illərdə qeyri-sabit dinamikaya malik olmuşdur. Bu isə Azərbaycan iqtisadiyyatının xüsusiyyəti, eləcə də iqtisadi subyektlərin davranışlarının kəskin dəyişməsi ilə əlaqədardır. 2018-ci ildə idxalın həcmi pik nöqtə olmaqla 2001-ci ilin göstəricisini 10 dəfəyə qədər üstələmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Qrafik 1.**

**Almaniya ilə idxal göstəricisi: rəsmi və güzgü statistikası [7]**




Almaniyadan idxalın əmtəə strukturu və onun texnoloji tutumluğunun təhlili mövcud idxalın ölkə üçün əhəmiyyətini görməyə imkan verir. Belə ki, statistik məlumatlara görə Almaniyadan idxal edilən məhsulların təxminən 10%-ə qədərini ərzaq məhsulları, heyvan, içkilər və tütün təşkil edir. Lakin belə idxal strukturu ölkədə uzunmüddətli iqtisadi artımın dayanıqlığı və onun davamlı olması baxımından məqbul hesab edilə bilməz. İdxalda texnoloji, xüsusilə sənaye məhsullarının üstün paya malik olması iqtisadi aktivliyə müsbət təsir göstərir. Hesablamalara görə idxalın təxminən 1/2-dən çoxunu maşın, mexaniki cihazlar, nüvə reaktorları, onların hissələri, dəmir yolu və ya tramvaydan başqa nəqliyyat vasitələri, onların hissələri və ləvazimatları təşkil edir ki, bu məhsullar da birbaşa olaraq istehsalda iştirak etmirlər. Qeyd edək ki, 2018-ci ildə ölkənin idxalının 23%-ni əsasən maşın və mexanizmlər təşkil etmişdir ki, burada da Almaniya mühüm paya malikdir. Lakin belə məhsullar daha çox istehlak məhsullarıdır və daxili tələbin dəyişməsinə həssasdır. Belə ki, ölkədə daxili tələbin dəyişməsi bu məhsulların idxalına da təsir göstərir. Eyni zamanda belə məhsulların idxalının yüksək paya malik olması valyuta bazarına təsir baxımından neqativ hesab olunur. Çünki istehlak məhsullarının idxalının üstünlük təşkil etməsi tədiyyə balansının xroniki olaraq kəsirli olmasına gətirib çıxaran əsas faktorlardandır.



Almaniyadan idxalda digər paya malik olan üçüncü qrup kimya sənayesi və taxta-ağac və mebel məhsullarıdır. Qeyd edək ki, belə məhsullar ilə əslində ölkənin öz tələbatını ödəmək imkanı və potensialı mövcuddur. Belə məhsulların daxili istehsalında rəqabətliliyin artırılması hesabına daxili tələbi təmin etmək mümkündür. Bütövlükdə Almaniyadan idxal əsasən hazır məhsul idxalıdır. Aralıq məhsul idxalı isə əhəmiyyətsiz çəkiyə malik olduğu üçün ölkədə iqtisadi aktivliyə təsir göstərmir. Belə ki, iqtisadi aktivlik əsasən aralıq məhsul idxalından təsirlənir. Texnoloji struktur baxımından yüksək texnoloji quruluşa malik məhsul idxalı istehsalın canlanması və dünya bazarında rəqabətlilik baxımından vacib faktordu. Bu səbəbdən perspektivdə Almaniya iqtisadiyyatının strukturunu və quruluşunu nəzərə alaraq hazır deyil, aralıq və yüksək texnoloji quruluşa malik sənaye məhsullarının idxalı iqtisadi aktivliyə mühüm dəstək verə bilər. Bu isə aralıq məhsul idxalına fokuslanmanı tələb edir.

İdxalda olduğu kimi, Azərbaycanın Almaniyaya ixracında da analoji proses müşahidə edilir. Belə ki, Azərbaycanın Avropaya ixracının 7%-i Almaniyanın payına düşür. Almaniya ixracın pik dövrü 2014-cü il olmaqla 1926 mln. dollar həcmində olmuşdur. 2018-ci ildə Almaniyanın Azərbaycanın ixracında payı 4% olmuşdur. Azərbaycanın ixracının həcminə görə Almaniya 6-cı yerdədir. Lakin belə bir yüksək paya malik olmasına baxmayaraq ixracın strukturu fərqli situasiyanı göstərir. Belə ki, statistik məlumatlara görə ixracın 95%-ni neft

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məhsulları təşkil edir. Eyni zamanda qeyri-neft məhsulları isə əsasən hazır deyil, xammal məhsullarından ibarətdir. Bu məhsulların isə qiymətləri dünya bazarında onların qiymətlərinin dəyişməsinə həssasdır və həmçinin həmin sahələrdə dövlət subsidiyaları üstünlük təşkil edir. Belə bir şəraitdə hətta xammal məhsulları belə alman bazarında rəqabətə davamlı deyildir.

Bütövlükdə ixracda yanacaq və xammal məhsullarının üstünlük təşkil etməsi ölkə iqtisadiyyatının strukturu ilə əlaqədardır. Belə ki, hazırda ölkənin ixracının 90-95%-ni yanacaq və neft məhsulları təşkil edir. Qeyri-neft ixracının həcmi 1.7 mlrd. dollar olmaqla Gürcüstan və s. kimi qonşu ölkələrlə müqayisədə əhəmiyyətli aşağı həcmə malikdir. Qeyri-neft sektorunun zəif inkişafı bütövlükdə ölkənin qlobal dəyər zəncirinə qoşulmaq imkanlarını məhdudlaşdırır. Almaniya kimi inkişaf etmiş Avropa ölkəsinə ixracda rəqabətli olmaq ölkə iqtisadiyyatında xarici birbaşa investisiya cəlbinin stimullaşdırılmasını tələb edir. Birgə və s. formada müəssisələrin yaradılması qeyri-neft ixracının artırılması baxımından vacib hesab olunur.[3]. Təbii ki, ölkə arasında coğrafi məsafə və ölkəmizin "land lok" olması ixraca təsir göstərir. Lakin iş adamları, onların iki dövlət arasında birbaşa əlaqələr yaratması, mütərəqqi sxemlərdən istifadə ixracın artmasını dəstəkləyə bilər. Müsbət dəyişikliklər 2014-cü ildən başlamışdır – aktiv ölkələrarası dialoq, rəsmi səfərlər, biznes-forum və s. Hesab edirik ki, Azərbaycan ixracı diversifikasiya olunmalıdır. Almaniyanın potensialından maksimal dərəcədə istifadə olunmalıdır – ilk növbədə yeni texnika, texnologiyaların tətbiqində, turizm biznesinin qurulması və fəaliyyətində və s. kimi sahələrdəki təcrübələrin tətbiqi istiqamətində işlər aktivləşdirilməlidir. Qeyd etmək lazımdır ki, son 5 ildə (2014-2018-ci illər) iki ölkə arasında ticarət dövriyyəsində artım müşahidə edilsə də bu sahədə potensial böyükdür: iki ölkə arasında ixrac və idxalın dinamikasının təhlili bunu deməyə əsas verir. Postneft dövrü – neftin qiymətlərinin aşağı düşməsi və respublikanın ixracdan büdcəyə daxilomalarının dəfələrlə azalması qeyri-neft sektorunun, ixracyönümlü sahələrin sürətli inkişafını ön plana çəkir.



Təhlilin nəticəsi olaraq qeyd olunmalıdır ki, Azərbaycan-Almaniya ticari-iqtisadi əməkdaşlığının müasir vəziyyəti qeyri-qənaətbəxşdir və köklü dəyişilməlidir. Almaniya Avropa Birliyinin güclü dövlətlərindən biridir, Azərbaycan isə öz məhsulları üçün yeni bazarlar axtarır. Bu məsələlərdə iki ölkə bir-birinə böyük dəstək verə bilər. Məhsullar mübadiləsi bir tərəfli olmamalıdır. Ölkələrimiz bir-birinin təcrübəsindən yararlanaraq, əlverişli mal mübadiləsini inkişaf etdirəcək və böyük potensialı olan xarici iqtisadi münasibətlərinin bütün spektrini möhkəmləndirəcəklər.

**Nəticə**

Azərbaycanın Avropadan idxalının təxminən 1/3-i Almaniyanın düşmüşdür. Avropadan ixracda isə Almaniyanın payı azalma dinamikasına malik olmuşdur. Almaniyadan idxal əsasən hazır məhsul idxalıdır. Aralıq məhsul idxalı isə əhəmiyyətsiz çəkiyə malik olduğu üçün ölkədə iqtisadi aktivliyə təsir göstərmir. Qeyri-neft sektorunun zəif inkişafı bütövlükdə ölkənin qlobal dəyər zəncirinə qoşulmaq imkanlarını məhdudlaşdırır. Almaniya kimi inkişaf etmiş Avropa ölkəsinə ixracda rəqabətli olmaq ölkə iqtisadiyyatında xarici birbaşa investisiya cəlbinin stimullaşdırılmasını tələb edir. Birgə və s. formada müəssisələrin yaradılması qeyri-neft artırılması baxımından vacib hesab olunur.

Almaniyanın cari idxalındakı əmtəələri bu qruplar üzrə təsnifləşdirmək olar: ortamüddətli dövrdə Azərbaycanda istehsal imkanları çox kiçik olan, istehsalı mümkün olsa da, inkişaf etmiş ölkələrə ixracı ehtimalı az olan əmtəələr. Hazırda Azərbaycandan Almaniyaya ixracı və ya ixracının artırılması mümkün olan əmtəələr. Qısamüddətli dövrdə Azərbaycandan Almaniyaya ixracı mümkün ola bilən əmtəələr. Qısamüddətli dövr dedikdə biz maksimum beş ili nəzərdə tuturuq. Ortamüddətli dövrdə Azərbaycandan Almaniyaya ixracı mümkün ola bilən əmtəələr.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat


1. Əliyev Ş.T. (2016), Azərbaycanda sənaye sektorunun və ixrac potensialının gücləndirilməsinin konseptual istiqamətləri, İpək Yolu, 4, s. 35-42.
2. Qənbərov F. Qloballaşma şəraitində ölkə iqtisadiyyatında iqtisadi artımın xarici iqtisadi amilləri. Azərbaycan Milli Elmlər Akademiyası, Qloballaşma mühitində milli iqtisadi inkişaf modelin formalaşması problemləri. Bakı: 2010, s.115-155.
3. Ben Bernanke (2015). Germany's trade surplus is a problem, Brookings Institution, April 3rd, 2015, https://www.brookings.edu/blog/ben-bernanke/2015/04/03/germanys-trade-surplus-is-a-problem.
4. Crome E. Deutschland in Europa. Eine neue Hegemonialdebatte. WeltTrends №86.- 2012. 59-68 p.
5. "What Germany offers the world". The Economist. Archived from the original on 28 April 2018. Retrieved 28 April 2018.
6. https://www.cbar.az/page-43/external-sector-statistics
7. https://www.trademap.org/Country_SelProductCountry_TS.aspx?nvpm.
8. https://www.trademap.org/Bilateral_TS.aspx?nvpm.


***Г.Т.Алиева***

***Анализ текущего состояния и динамики развития азербайджано-германских торговых отношений***

***Резюме***

*В статье оценивается влияние внешних связей с Германией на экономическое развитие Азербайджана на основе комплексного и систематического анализа показателей динамики азербайджано-германских торгово-экономических отношений, определяется направлений и приоритетов расширения торгово-экономического сотрудничества между Азербайджаном и Германией по отдельным взаимовыгодным товарным группам, при этом предлагается принципы рационального выбора, а также выделяется потенциал для стимулирования внешней торговли и экспорта Азербайджана.*

***Ключевые слова:*** *Германия, внешние связи, внешняя торговля, интеграция, сравнительное преимущество, конкурентоспособность, экспорт, импорт, внутренние и внешние рынки, энергетическая безопасность*

**G.T.Alıev**

**Analysis of the current condition and dynamics of development of Azerbaijan-German trade relations**

**Summary**

*The article assesses the impact of foreign relations with Germany on the economic development of Azerbaijan on the basis of a complex and systematic analysis of the dynamics of the Azerbaijan-German trade and economic relations, determines the directions and priorities for expanding trade and economic cooperation between Azerbaijan and Germany for certain mutually beneficial commodity groups, and principles of rational choice, as well as the potential to stimulate foreign trade and exports of Azerbaijan are presented.*

***Keywords:*** *Germany, external relations, foreign trade, integration, comparative advantage, competitiveness, export, import, internal and external markets, energy security*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 24.06.2019.***
***Çapa qəbul olunub: 27.06.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*